# Emosiya konseptləri və müasir emosiya nəzəriyyələri

**Həqiqət Mübariz qızı Hüseynova**
*AUL*
**E-mail:** hhuseynova48@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ç. Vəliyeva,
filol.ü.f.d., dos. C.M. Babayev

**Açar sözlər:** insan, konsept, emosiya, fizioloji, bioloji
**Ключевые слова:** человек, концепция, эмоция, физиология, биология
**Key words:** human, concept, emotion, physiology, biology

Konseptlərin ideal mahiyyəti onları maddi sayılan dil işarələrindən fərqləndirir. Ə. Abdullayev yazır ki, konseptlər insanların şüuruna məxsusdur. Onlar insan beynində mövcud olub sırf əqli səciyyə daşıyır. Konseptlər insan psixologiyasında ətraf aləmin ayrı-ayrı fraqmentlərinin, yaxud aspektlərinin "daxili nümayəndələri hesab oluna bilər". Ona görə də hesab etmək olar ki, onlar bizim daxilimizdədir (1, s. 90).

Konseptlər bütövlükdə təfəkkür və danışıq aktları zamanı mühafizə olunan, fəallaşan və istifadə edilən bilik hissələridir. Onları təhlil etmək mümkün deyildir və onlar olduqlarından daha kiçik hissələrə bölünə bilmir. Konseptlər koqnitiv proseslər zamanı işlədilir və fəallaşır.

F.Palmer yazır ki, konseptləri primitiv qəbul etmək olmaz. Onlar artıq mövcud olan biliyin vahidləri, yaxud kvantları da hesab oluna bilər. Konseptlərin özlərinəməxsus quruluşları var və onlar real gerçəkliyi əks etdirirlər (2, s. 101).

Bir çox müəlliflər konseptin tərkibində konseptual əlamətlərin mücərrədlik dərəcəsinə uyğun fərqləndiyinə diqqət yetirirlər. U. Kanon konseptin çoxkomponentli strukturunun əsasını, nüvəsini və onun zahiri çevrəsini terminlə ifadə etməyi təklif edir (3, s. 106). Konseptin mahiyyətində konseptual əlamətlər konkret-obrazlı xarakterlidir və ətraf aləmi hissi dərketmənin nəticəsidir. Konseptin zahiri çevrəsini təşkil edən mücərrəd əlamətlər çox dəqiqliyi ilə fərqlənən əlamətlərə nisbətində yaranır və obyektlər barədə nəzəri, elmi dərketmənin nəticəsində əldə edilmiş xüsusi bilikləri əks etdirir.

Konseptlər insanın həyat həqiqətlərini dərk etməsi prosesində yaranır və ətraf aləmlə bağlı məlumatı əks etdirir. Konseptlərin yarandığı insanın xüsusi dərketmə fəaliyyəti konseptualizasiya adlanır. Konseptualizasiya prosesi reallığın koqnitiv anlaşılmasından təşkil olunur və insan təcrübəsinin minimal məzmun vahidlərinin ayrılmasına yönəlmişdir. İnsan təxəyyülündə mövcud olan bütün konseptual reprezentasiyaların cəmi konseptual sistem və ya həqiqətin konseptual mənzərəsi adlanır.

Konseptin tərkibində zəruri, səciyyəvi və ehtimal olunan, həmçinin mücərrəd və konkret əlamətlərlə yanaşı ümummilli, qrup şəklində və fərdi konseptual əlamətlər də müəyyən etmək olar. Həmin kateqoriyalar göstərir ki, konseptin tərkibi bu və ya digər mədəniyyət təmsilçilərindən müəyyən hədd daxilində müxtəlif şəkildə özünü büruzə verir. Buna baxmayaraq, konseptin məzmunu öz əsasına söykənməklə bütün mədəniyyət təmsilçilərində, onların arasında ünsiyyətin mövcud olması səbəbindən üst-üstə düşməlidir.

Emosiya insanın bütün varlığına hakim olan fenomendir. O, bütün dil fəaliyyətini müşayiət edir. Ona görə də insanın əqli fəaliyyəti hərtərəfli öyrənilərkən koqnisiya, dil və emosiya bir arada götürülür. Doğrudur, son dövrlərin tədqiqatlarında koqnisiya nəzəriyyəsində emosi-

yalar o qədər də nəzərə alınmırdı. Lakin son illərdə çox elm sahələrində, məsələn, psixologiya, neyrologiya, fəlsəfə və s. beyində baş verən "emosional dönüşün" öyrənilməsinə maraq artmaqdadır.

Emosiya təkamül nəzəriyyəsinin banisi kimi tanınan naturalist Ç. Darvin insan və heyvan emosiyalarının yaranma şərtlərini müzakirə edir. Ç. Darvin emosiyanın yaranmasını, inkişaf etməsini insanların və heyvanların canlı qalma cəhdləri, yaşamaq istəkləri ilə əlaqədar olduğunu iddia edir. Lakin bu məsələdə fərqli mövqelərdə də müşahidə olunur. Psixolinqvistlərin mövqeyi naturalistlərin mövqeyindən fərqlənir.

Emosiyanın təkamül nəzəriyyəsinə görə, insanların emosiyalarının mövcudluğu onların ətraf mühitə uyğunluğu ilə əlaqədardır. Emosiyalar insanların ətraf aləmdə olanlara dərhal münasibət göstərmələrinə şərait yaradır və onların ətraf aləmlə olan münasibətlərini stimullaşdırır.

Naturalistlərin emosiyanın təkamül nəzəriyyəsi ilə bağlı fikirləri də maraqlıdır. Emosiyanın müxtəlif növləri məsələn, sevgi və məftunluq hissi ilə qorxu və nifrət hissi qarşılaşdırılır və hansı şərtlər daxilində onların inkişaf etməsi müzakirə edilir.

Fizioloji emosiya nəzəriyyəsini çox zaman "Ceymz-Lənc nəzəriyyəsi" də adlandırırlar.

Bu nəzəriyyənin yaradıcıları psixoloq U. Ceymz və fizioloq K. Lənc hesab edilir. Onların qənaətinə görə, insanların fərqli situasiyalarda göstərdikləri emosiyalar, onların müxtəlif hadisələrə olan psixoloji münasibətlərinin nəticəsində yaranır (4, s. 211).

Bu nəzəriyyəyə tərəfdarları bu qənaətdədirlər ki, insanların davranışlarını onların psixolji vəziyyətləri idarə edir. Əgər insan sevinclidirsə, o halda ətrafda olan hər hansı bir hadisəyə münasibəti müsbət olur, əksi olduqda isə, insanların ətrafda baş verənlərə münasibətləri fərqli olur.

Bu nəzəriyyə tərəfdarlarının haqlı və haqsız olduqları məqamlar nümunələr və situasiyalar əsasında müqayisə edilə bilər.

Emosiyanın digər bir nəzəriyyəsi məşhur "Kannon-Bard nəzəriyyəsi" adlanır (5, s. 423). Bu nəzəriyyə də psixolinqvistlər tərəfindən yaradılıb. "Kannon-Bard nəzəriyyəsi" tərəfdarları "Ceymiz-Lənc nəzəriyyəsini" dəstəkləmirlər. Hər iki nəzəriyyə tərəfdarlarının emosiya ilə bağlı fikirləri və eksperimentləri maraq doğurur. Hər iki nəzəriyyənin tərəfdarlarının haqlı olduqları, fikirlərinin üst-üstə düşdükləri məqamlar olsa da, onların nəzəriyyələri insan emosiyasının psixoloji vəziyyətini fərqli şəkildə izah edir. Birinci nəzəriyyə tərəfdarları insanların ətraf aləmlə münasibətlərini onların psixoloji vəziyyətləri ilə əlaqələndirirlərsə, ikinci nəzəriyyənin tərəfdarları hadisələrin insanları yönləndirdiyini iddia edirlər. "Cannon və Bard nəzəriyyəsi" göstərir ki, fiziki və psixoloji emosiya təcrübəsi eyni anda baş verir və biri digərini yaratmır.

Emosiyanın koqnitiv faktorlarla əlaqəsi də maraqlıdır. Bu nəzəriyyə ilk növbədə fizioloji ünsiyyəti ön plana çəkir. İlk növbədə ünsiyyət yaranır və sonra fərd situasiyadan asılı olaraq həyəcanını emosiya ilə ifadə edir. İnsanları ünsiyyətə cəlb edən akt beyində koqnitiv münasibəti fəallaşdırır və bu da emosiyanın yaranması və əks olunması ilə nəticələnir.

Emosional faktorlar söz mənasının açılmasında, sözlərin seçilməsində və işlədilməsində situasiyadan asılı olaraq ya sürətləndirici, ya da ləngidici təsir göstərir. Bunlardan əlavə, emosiyalar ətraf aləmlə rəftarda və sosial davranışda insanlara ciddi təsir göstərə bilmələri ilə diqqəti cəlb edir.

Bu nəzəriyyənin tərəfdarları bütün emosional münasibətlərin əsasında koqnitiv faktorların ön planda olmasını iddia edirlər. Onların qənaətinə görə, bənzər fizioloji reaksiyalar fərqli emosional duyğuları yarada bilər.

Sağlam insan dünyaya gəldiyi zamandan etibarən ana dilinin malik olduğu konstruksiyalarını incəliklərinə pillə-pillə öyrənməyə başlayır. Dilöyrənmə bacarığı insanı digər canlılardan fərqləndirə bilə bacarığıdır. Məlumdur ki, dilə yiyələnməklə bağlı fərqli fikirlər, yanaşmalar mövcuddur. Xüsusilə də empirizmlə navitizm arasında klassik qarşıdurmalar həmişə mövcud olubdur.

Neyrofizioloji və psixoloji yanaşmada emosiya konseptlərinin mahiyyəti müşahidə edilir. Müəyyən edilir ki, neyroloji yanaşmada neyron, ötürücü və hərəkət potensialı, psixolinqvistik yanaşmada isə simvol, bilik strukturu, mətnyaratma və referens kimi mental anlayışları ehtiva edir. Neyronal strukturların və proseslərin koqnisiya üçün əhəmiyyəti olduğu vurğulanır. Bunun səbəbi onunla izah olunur ki, insan beyninin strukturu onun mental fəaliyyətinin əsasını təşkil edir.

Əqli fenomenlər də sinir hüceyrələrilə şərtlənir. Bu da onu göstərir ki, koqnisiya beyindən idarə olunur. Mental və neyronal proseslər üçün ayrıca təsvir səviyyəsi mümkündür və onların hər ikisinin səbəbi eyni sistem qüvvələrinin istiqamətlənməsindən irəli gəlir.

Araşdırmalar göstərir ki, emosiyalar insan həyatı və yaşamı üçün vacib olan konstituv fenomenlərdir. Ona görə də onlar insan koqnisiyasını dərk etmək üçün çox vacibdir.

Koqnisiyanın emosiyaya, yaxud düşüncənin hissiyyata qarşı qoyulmasının tarixi qədimdir. Anlama və hissetmə dualizmi həmişə aktiv hesab edilib. R. Dekartın dövründən bəri fəlsəfi, filoloji və koqnitiv tədqiqatlar bu dixotomiyanı əsaslandırmağa çalışmışlar. Hazırda emosiya ilə koqnisiyanın tam fərqli fenomenlər olması fikri konseptual xarakter daşıyır. Emosiya koqnisiyadan asılı deyildir, koqnisiya üçün emosiyalar vacib deyil, onlar koqnitiv proseslərə maneçilik törədən amillər hesab edilir. İnsan koqnisiyası prinsipial olaraq rasional dəyərləndirildiyi halda, emosiyanı kontrastiv və çox ümumi şəkildə olan irrasionallıq əlaməti aid hesab edilir.

Eyni zamanda insanın dərki, şüuru və hərəkətləri, həmçinin onun bütün fəaliyyət sahələri üçün emosiyaların rolu əvəzsizdir. Emosiyalar koqnitiv proseslərə müsbət təsir göstərir. Bununla yanaşı, dil fəaliyyəti və koqnitiv proseslər avtonom qəbul edilir. Onlar emosiyadan asılı hesab edilmir, yaxud onlara az təsiri olan amillər hesab edilir.

İnformasiyanın yaranması beyində libik adlanan hissənin köməkliyi ilə reallaşır. Libik emosiyalara cavabdeh olan beyin hissələrini əks etdirən termin kimi işlədilir. Kateqoriyalaşma və nəticələrin çıxarılmasında emosiyalar mühüm strateji funksiyalar yerinə yetirı bilir. Emosiyaların iki növü fərqləndirilir. Pozitiv emosiyalar düşünməyə və dil faəliyyətinə səmərəli təsir göstərir və ünsiyyət prosesini sürətləndirir, spontan qərarların qəbul edilməsinə şərait yaradır. Neqativ emosiya isə qərar qəbul edilməsini ləngidir, düşüməyə və dil fəaliyyətinə mənfi təsir göstərir.

Maraq doğuran məsələlərdən biri insanın koqnitiv sistemində emosiyaların relevantlığının müəyyənləşməsidir. Burada emotiv, koqnitiv və dil aspektlərinin qarşılıqlı əlaqələri tədqiq olunmalıdır. Emosionallıq daxili, yəni mental sistem kimi götürülür və onun vahidləri insanın təkamülündə müntəzəm olaraq iştirak edir. O, insan orqanızmində yer alan, hər anın özünü göstərən, insan məninin ayrılmaz və mühüm hissəsi hesab edilir. Emosional informasiyanın bir hissəsi formal olaraq koqnitiv biliyin konseptual şəbəkəsi və ya sxemlər kimi təsvir oluna bilər. Nümunə:

*I am happy that he will come.* “Xoşbəxtəm ki, o gələcək”.

*I am happy that he is not coming.* “Xoşbəxtəm ki, o gəlmir”.

Danışıq məqamından asılı olaraq bu söyləmlərin emosional təsiri daha aydın üzə çıxa bilir. Birinci halda danışan sevinir ki, haqqında söhbət gedən şəxs gəlir. İkinci halda isə gözlənilən

şəxsin gəlməməsini arzulamaq danışanın istəyidir və seçimidir. Bu da fərqli anlamlar ifadə edən "sevgi" və "nifrət" konseptlərinin lazım olan situasiyalarda işlədilməsini reallaşdırır.

Xoş hiss-həyəcan ifadə edən emosional konseptlər sadə, düzəltmə və mürəkkəb quruluşa malik olur:

| **Sadə** | **Düzəltmə** | **Mürəkkəb** |
|---|---|---|
| easy | thankful | overjoyed |
| great | lucky | Easy and free |
| gay | joyous | Hungry and angry |

Hiss-həyəcan ifadə edən konseptlərin əks etdirdikləri semantik mənalar mətndə ötürülən informasiyada asılı olaraq fərqli şəkildə reallaşa bilir. Bu cür konseptləri semantik baxımdan aşağıdakı kimi qruplaşdırmaq olar:

a) hirs-qəzəb bildirənlər;
b) kədər bildirənlər;
c) sevinc bildirənlər;
d) təəccüb ifadə edənlər;
e) qorxu bildirənlər;
f) acı şirin (oksimoron məna) bildirənlər və s.

**Məqalənin aktuallığı.** Müasir dilçilikdə konseptlər, xüsusilə də emosiya, yəni hiss-həyəcan ifadə edən konseptlərin öyrənilməsi, tədqiq edilməsi məqalənin aktuallığını təşkil edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik məqalədə emosiya ifadə edən konseptlərlə bağlı nəzəriyyələrin hansı şərtlər əsasında yaranması, nəzəriyyələri bir-birindən fərqləndirən əlamətlərin müəyyənləşməsi və araşdırılmasından ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə fərqləndirilən vasitələrdən müəllimlər, tədqiqatçılar və tələbələr yararlana bilərlər.

## Ədəbiyyat

1. Abdullayev Ə.Ə. Aktual üzvlənmə və mətn. Bakı: Xəzər Universitetinin nəşriyyatı, 1998.

2. Palmer F.R. Semantics. Cambridge, Cambridge University Press, 1981.

3. Cannon W. The James-Lange Theory of Emotions: A Critical Examination and an Alternative Theory. The American Journal of Psychology 39 (1/4), pp. 106-124, 1996.

4. Lang P. J. The Varieties of Emotional Experience: A Meditation on James-Lange Theory. Psychological Review 101 (2), pp. 211–221, 1994.

5. Deckers L. Motivation: Biological, Psychological, and Environmental. New York: Routledge, pp. 423–425, 2018.

6. Dalgleish T. The emotional brain. Nature Reviews Neuroscience. 5 (7), pp. 583-589, 2004.

**H.M. Huseynova**

## The concepts of emotion and modern emotion theories

## Summary

The article deals with the concepts of emotions. It states that emotions are biological states associated with the nervous system. It brought on by neurophysiological changes variously associated with thoughts, feelings, behavioral responses, and a degree of pleasure or displeasure. The theories dealing with the concepts of emotion such as *'James–Lange theory', 'Cannon-Bard theory of emotion'* have been analyzed in the article as well.

**Х.М. Гусейнова**

## Понятия эмоции и современные теории эмоции

## Резюме

В статье рассматриваются понятия эмоций. В нем говорится, что эмоции - это биологические состояния, связанные с нервной системой. Это вызвано нейрофизиологическими изменениями, которые по-разному связаны с мыслями, чувствами, поведенческими реакциями и степенью удовольствия или неудовольствия. В статье также были проанализированы теории, относящиеся к концепциям эмоций, такие как «теория Джеймса – Ланге», «теория эмоций Кэннона-Барда».

**Redaksiyaya daxil olub:** 21.05.2021